# Dünyada ilk d f  3 valideyni olan uşaq doğuldu

Yazan
28.09.16 17:12



Dünyada ilk dəfə olaraq 3 valideyni olan uşaq dünyaya gəlib.

“ Qafqazinfo ” xarici mətbuata istinadən xəbər verir ki, uşaq Meksikada doğulub. Uşağın sağlam doğulması üçün həkimlər 3 nəfərin genindən istifadə ediblər.

Həkimlərin belə bir yola əl atmasının isə səbəbləri olub. Belə ki, İordaniyadan olan ailənin uşaqları bir neçə dəfə doğulduqdan az sonra ölürmüş. Elm adamları bunun səbəbinin qadının qanında olan Ley sindromu ilə əlaqəli olduğunu aşkar ediblər. Amerikalı genetiklər qadının xəstə geninin uşağa keçməməsi üçün həmin genin sağlam formasını kənar qadın donordan

götürüblər. Qalan genlər isə ana və ataya məxsus olub.

Hazırda uşağın normal olduğu bildirilir.